1_Layout 1 14.07.2014 9:17 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 13 (431)

15 iyul 2014-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

## «AZƏRBAYCAN ORDUSU HƏR AN ALİ BAŞ KOMANDANIN ƏMRİNİ YERİNƏ YETİRMƏYƏ HAZIRDIR, BUNA QADİRDİR!»

**İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti**

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin çıxışlarından:**

**- Ordumuzda nizam-intizam artır, islahatlar aparılır. Bu, çox sevindirici haldır. Ordumuzun döyüş qabiliyyəti artır, güclənir. Bu gün bizim ordumuz istənilən vəzifəni icra edə bilər və bugünkü təlimlər bunu bir daha nümayiş etdirmişdir. Ordumuzun uğurlu inkişafı üçün həm maddi-texniki təchizat davam etdiriləcək, eyni zamanda, Silahlı Qüvvələrdə aparılan islahatlar dərinləşəcəkdir. Müasir döyüş taktikası tətbiq edilir, dünyada ən qabaqcıl təcrübə öyrənilir və Azərbaycanda istifadə olunur.**

Bugünkü dünyada daha çox yüksək dəqiqliyə və böyük dağıdıcı qüvvəyə malik olan silahlar üstünlük təşkil edir. Bu silahları biz alırıq və alacağıq. Eyni zamanda, Azərbaycanda son illərdə yerli istehsal da təşkil edilibdir. 2005-ci ildən bu günə qədər Müdafiə Sənayesi Nazirliyinin xətti ilə 900 adda hərbi təyinatlı silah-sursat istehsal olunubdur və bu gün bu proses davam etdirilir. Gələcəkdə biz sursatlarla, texnika ilə özümüzü tam şəkildə təmin etməliyik. Eyni zamanda, ən müasir müxtəlif texnika alınır, alınacaqdır. Müasirləşmə prosesi daim aparılmalıdır.



**Hərbçilərin sosial müdafiəsi yüksək səviyyədə təmin edilir. Hərbçilərin maaşları, pensiyaları vaxtaşırı qaldırılır və iki il bundan əvvəl imzaladığım Sərəncama əsasən orduda 20 il qüsursuz xidmət göstərmiş şəxslərə dövlət tərəfindən mənzillər verilir. Hazırda 200-ə qədər mənzil verilmişdir. Bu ilin sonuna qədər veriləcək mənzillərin sayı 500-ə çatacaqdır. Bu, dövlətin öz hərbçilərinə olan diqqətinin təzahürüdür və hərbçilərin sosial müdafiəsi bizim üçün böyük əhəmiyyət kəsb edən məsələdir. Azərbaycan müharibə şəraitində yaşayır. Belə olan halda ordu quruculuğu nəinki dövlət qurumları, hər bir vətəndaş üçün ən vacib, ən ümdə məsələ olmalıdır.**

Torpaqlarımız işğal altındadır. Azərbaycan xalqı bu işğaldan əziyyət çəkir. Uzun illərdir münaqişə öz həllini tapmır. Beynəlxalq təşkilatların qərar və qətnamələri icra edilmir. Bizə qarşı ikili standartlar siyasəti aparılır. Dəfələrlə bu barədə fikirlərimi müxtəlif kürsülərdən ifadə etmişəm. Bu gün də demək istəyirəm ki, bizə qarşı göstərilən ədalətsizlik qəbuledilməzdir. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi vardır ki, erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmasını tələb edir. Üstündən 20 il keçib. Onların heç biri icra edilmir. Beynəlxalq ictimaiyyət buna biganə yanaşır.

**Biz müharibə istəmirik. Biz çalışırıq ki, məsələ sülh yolu ilə həll edilsin. Ancaq görürük ki, iyirmi il ərzində bu məsələ öz həllini tapmır. Bu məsələni dondurulmuş vəziyyətdə saxlamaq istəyən qüvvələr, əfsuslar olsun ki, öz niyyətlərinə, öz məqsədlərinə nail olurlar. Biz isə bu vəziyyətlə barışmaq istəmirik və barışmayacağıq. Biz sülh istəyirik. Amma, eyni zamanda, biz torpaqlarımızı, haqq-ədalətin bərpasını istəyirik. Bizim tələbimiz əsaslıdır. Bizim tələbimiz tarixə, beynəlxalq hüquqa və ədalətə əsaslanır. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır, tarixi Azərbaycan torpağıdır.**

Hazırda güclənən Azərbaycan Ordusu Ermənistan üçün böyük təhlükə mənbəyidir. Onu özləri də etiraf edirlər. Özləri də öz məğlubiyyətlərini etiraf edirlər. Çünki onların yüksək vəzifəli rəsmi şəxsləri dəfələrlə bəyan etmişlər ki, Ermənistan təhlükəsizliyini özü təmin edə bilmir. O ölkə ki öz təhlükəsizliyini təmin edə bilmir, o ölkə müstəqil ölkə sayıla bilməz. Bu etiraf əslində məğlubiyyətin etirafıdır. Bu etiraf acizliyin etirafıdır. Onlar bizim qarşımızda duruş gətirə bilmir, özləri bunu etiraf edir. Bu gün güclənən Azərbaycan Ordusu məsələnin həlli üçün ən birinci amildir. Hətta atəşkəs rejimi şəraitində bizim güclənən ordumuz erməniləri təşvişə salır. Biz hamımız yaxşı bilirik və operativ məlumat da alırıq ki, Ermənistan ordusu təşviş içindədir. Biz təmas xəttində üstünlüyü tam şəkildə əldə etmişik. Təmas xəttində vəziyyətə tam şəkildə biz nəzarət edirik. Ancaq Azərbaycan dövlətinin sülhsevər siyasəti bu gün sabitliyin qarantıdır. Heç bir kənar qüvvə bu bölgədə sabitliyin qarantı ola bilməz. Heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz.

**Azərbaycan güclənir, regionda güc mərkəzidir. Bizim iqtisadi gücümüz hərbi gücə çevrilibdir. Biz bundan sonra da öz hərbi imkanlarımızı artıracağıq, bundan sonra da danışıqlar masasında prinsipial mövqeyimizi gücləndirəcəyik. Bizim prinsipial mövqeyimizin əsas mənbəyi Azərbaycan xalqıdır, onun iradəsidir, Azərbaycan Ordusudur, Azərbaycan əsgəridir. Mən əminəm ki, Azərbaycan ərazi bütövlüyünü bərpa edəcəkdir.**

- Biz hələ ki, danışıqlara sadiq qalacağıq. Ancaq bir daha demək istəyirəm ki, səbrimiz tükənir və Azərbaycan Ordusu hər an Ali Baş Komandanın əmrini yerinə yetirməyə hazırdır, buna qadirdir. Bizim əsas vəzifəmiz ərazi bütövlüyümüzün bərpasıdır. İşğal edilmiş torpaqlar ilk növbədə azad olunmalıdır, ondan sonra Dağlıq Qarabağ, - o da işğal edilmiş torpağımızdır, - Azərbaycan nəzarətində olmalıdır. Azərbaycan bayrağı işğal edilmiş bütün şəhərlərdə, o cümlədən Şuşada, Xankəndidə qaldırılmalıdır və qaldırılacaqdır. Bu, bizim əsas vəzifəmizdir. Biz bu vəzifəyə çatacağıq. Biz hər gün, hər an bu hədəfə yaxınlaşırıq.

**Azərbaycan öz ordusuna, öz dövlətinə inanır, ordusuna və dövlətinə güvənir. Azərbaycan dövləti və Azərbaycan Ordusu öz vətəndaşlarını müdafiə edir.**

## DAXİLİ QOŞUNLARIN ALİ HƏRBİ MƏKTƏBİNƏ DÖYÜŞ BAYRAĞININ TƏQDİM OLUNMASI VƏ HƏRBİ MƏKTƏBİN MƏZUNLARININ BURAXILIŞI MÜNASİBƏTİ İLƏ TƏNTƏNƏLİ MƏRASİM KEÇİRİLMİŞDİR

**İyulun 9-da keçirilmiş mərasimdə Daxili İşlər Naziri, general-polkovnik Ramil Usubov iştirak etmişdir.**

Əvvəlcə daxili işlər nazirinin qarşılanması olmuş, nazir müavini - Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədov general-polkovnik Ramil Usubova şəxsi heyətin mərasimə hazır olması barədə raport vermişdir. Nazir şəxsi heyəti salamlamış, əlamətdar hadisələr münasibətilə onları təbrik etmişdir.

Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda döyüşlərdə həlak olmuş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra mərasim açıq elan olunmuşdur.

Daxili İşlər Naziri ölkə Prezidentinin müvafiq fərmanı ilə verilmiş döyüş bayrağını Ali Hərbi Məktəbin rəisi, general-mayor İlqar Məmmədova təqdim etmişdir. Azərbaycanın Dövlət himni səsləndirilmişdir.

Məzunlar adından çıxış edən leytenant Nurlan Məmmədov tədris müddətində aldıqları mükəmməl təhsilə, əldə etdikləri zəruri bilik və praktik vərdişlərə, yüksək diqqət və qayğıya görə Daxili İşlər Nazirliyinin rəhbərliyinə və Ali Hərbi Məktəbin pedaqoji kollektivinə minnətdarlığını bildirmiş, onlara göstərilən etimadı əməli fəaliyyətləri ilə doğruldacaqlarına söz vermişdir.



Nazir müavini-Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədov çıxış edərək respublikamızda milli hərbi kadrların hazırlanması istiqamətində əhəmiyyətli addımların atıldığını, bu məqsədlə ölkə Prezidenti cənab İlham Əliyevin göstərişilə səkkiz il öncə Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbinin yaradıldığını vurğulamışdır.

O demişdir ki, artıq 4-cü dəfə buraxılışı olan Orta İxtisas Hərbi Məktəbində hazırlanan kadrlar hərbi hissə və bölmələrin döyüş hazırlığının daim yüksək saxlanılmasında, qarşıya qoyulmuş tapşırıqların yerinə yetirilməsində öz bilik və bacarıqlarını əsirgəməyərək Daxili Qoşunların döyüş ənənələrinə sadiq olduqlarını nümayiş etdirmişlər.

Məhz kadr potensialının daha da gücləndirilməsi məqsədilə dövlət başçısının 25 fevral 2011-ci il tarixli Sərəncamı ilə Orta İxtisas Hərbi Məktəbinin əsasında Daxili Qoşunların Ali Hərbi Məktəbi yaradılmışdır. Qeyd olunmuşdur ki, DİN rəhbərliyinin, şəxsən cənab nazirin xüsusi nəzarət və qayğısı sayəsində Ali Hərbi Məktəb qısa bir müddətdə fəaliyyəti üçün zəruri olan bütün şərait və maddi-texniki tədris bazası ilə tam təmin edilmiş, ötən dövr ərzində burada tədris olunan dərslərin, praktiki və səhra təlimlərinin keyfiyyəti qənaətbəxş olmuş, günün tələblərinə cavab vermişdir. Məruzəçi peşəkar kadr hazırlığındakı yardıma və bu yöndəki xüsusi səylərinə görə Türkiyə Respublikasının Jandarm Baş Komandanlığına da minnətdarlığını bildirmişdir.

Sonra Daxili İşlər Naziri, general-polkovnik Ramil Usubov ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təbriklərini və xoş arzularını şəxsi heyətə çatdırmışdır.

Nazir Ümummilli Lider Heydər Əliyevin ordu quruculuğu çərçivəsində Daxili Qoşunların təkmilləşməsinə də böyük önəm verdiyini, məhz Ulu Öndərin xüsusi diqqət və qayğısı ilə onun formalaşıb inkişaf etdiyini, yüksək döyüş hazırlığı olan peşəkar və mobil bir quruma çevrildiyini məmnunluqla vurğulamışdır. Cənab Ramil Usubov bildirmişdir ki, Ümummilli Liderin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Silahlı Qüvvələrin tərkib hissəsi olan Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, peşəkarlığının yüksəldilməsinə daim diqqət və qayğı göstərir, ümumilikdə, Silahlı Qüvvələrin döyüş hazırlığının artırılmasını dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi qiymətləndirir. Məhz möhtərəm dövlət başçısının tələb və göstərişlərinin, xüsusi diqqət və qayğısının nəticəsi olaraq, bu gün Daxili Qoşunlar qarşıya qoyulan istənilən döyüş tapşırığını layiqincə yerinə yetirməyə qadirdir. Təsadüfi deyil ki, Daxili Qoşunlar milli mənafelərimizin keşiyində ayıq-sayıq dayanır və ölkədə daxili sabitliyin dönməzliyinin qorunmasında əsas qüvvələrdən birinə çevrilmişdir. Daxili İşlər Naziri Daxili Qoşunların peşəkar kadr özəyinin formalaşmasında Türkiyə Silahlı Qüvvələrinin, o cümlədən Jandarm Baş Komandanlığının rolunu xüsusi qeyd etmiş, şəxsi heyətin yüksək döyüş hazırlığına görə Daxili Qoşunların Komandanlığına minnətdarlığını bildirmişdir.

Nazir Daxili Qoşunların torpaqlarımızın müdafiəsində fədakarlıq göstərdiyini, yüzlərlə şəhid verdiyini, sonrakı illərdə ölkəmizdə müstəqilliyin, daxili sabitliyin qorunmasında əzmkarlıq nümayiş etdirdiyini, yüksək peşəkarlığa və mənəvi-psixoloji hazırlığa malik olduğunu məmnunluqla vurğulamışdır. O demişdir ki, ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin dəfələrlə hərbi hissələrdə olması, şəxsi heyətin sosial-məişət şəraiti ilə yaxından maraqlanması və göstərdiyi qayğı hərbi qulluqçuların döyüş ruhunun yüksəlməsinə təkan verir, onların Vətənə, xalqa xidmət əzmini daha da artırır. İctimai asayişin qorunmasında və qarşıya qoyulmuş tapşırıqların yerinə yetirilməsində fərqlənən şəxsi heyətin fədakar əməyi ölkə başçısı tərəfindən həmişə yüksək qiymətləndirilir, hərbi qulluqçular müxtəlif dövlət mükafatları ilə təltif olunur.

Sonda Daxili İşlər Naziri şəxsi heyətin fəaliyyətini hər zaman yüksək qiymətləndirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı, zati-aliləri cənab İlham Əliyevə dərin minnətdarlığını bildirmiş və onu əmin etmişdir ki, Daxili Qoşunların hərbi qulluqçuları qarşıya qoyulan bütün vəzifələri və tapşırıqları bundan sonra da yüksək səviyyədə yerinə yetirəcək, göstərilən ali diqqət və böyük etimadı xalqına, Vətəninə, dövlətinə və Prezidentinə sədaqətli xidməti ilə doğruldacaqdır.

Sonra məzunlara diplomlar təqdim olunmuşdur.

Məktəbi fərqlənmə ilə bitirmiş leytenant Seymur Mehrəliyev "Yaş kötüyü"nə xatirə lövhəsini vurmuşdur.

Tədbirin rəsmi hissəsi "Ali Hərbi Məktəbin marşı"nın sədaları altında şəxsi heyətin tribuna önündən təntənəli keçidi ilə başa çatmışdır.

# XİDMƏTİ-DÖYÜŞ FƏALİYYƏTİNƏ YEKUN VURULMUŞDUR

*Qarşıda duran bütün tapşırıqlar yüksək səviyyədə yerinə yetirilmişdir*

**Daxili Qoşunların Baş İdarəsində və hərbi hissələrində 2014-cü ilin I yarımili üzrə xidməti-döyüş fəaliyyətinin yekunlarına dair xidməti müşavirələr keçirilmişdir.**

2014-cü ilin I yarımilliyinin yekunları barədə müşavirənin planı, hərbi hissə komandirinin məruzəsi, xidməti-döyüş fəaliyyətinin yekunları və qarşıda duran tapşırıqlar, eləcə də şəxsi heyətin mükafatlandırılması barədə hərbi hissə üzrə əmrlər, planda nəzərdə tutulmuş digər şəxslərin məruzələri və hesabatlar, o cümlədən xidmətlər üzrə təhlil materialları əyani vəsait şəklində nümayiş etdirilmişdir.

Qeyd olunmuşdur ki, I yarımillikdə günün nizam qaydası, hərbi qulluqçular arasında qarşılıqlı münasibətdə nizamnamə qaydalarının gözlənilməsi, hərbi geyim formasının daşınması, təlimlərdə təhlükəsizlik qaydalarına ciddi riayət olunması, şəxsi nəqliyyat vasitələrinin ehtiyatla idarə edilməsi, xüsusi əməliyyatların keçirilməsi və qarşıya çıxa biləcək hər hansı bir tapşırığın yerinə yetirilməsi diqqət mərkəzində saxlanılmışdır.

Ötən dövr ərzində xidməti-döyüş fəaliyyətinin vəziyyəti təhlil edilmiş və nəticə etibarilə müsbət nailiyyətlər əldə olunmuşdur. Belə ki, cari ilin ilk 6 ayı ərzində döyüş təlimi, qarovul və qoşun xidmətinin təşkili üzrə qarşıda duran bütün tapşırıqlar yüksək səviyyədə yerinə yetirilmişdir.

**2014-cü ilin 6 ayı ərzində eyni zamanda qoşunların maddi-texniki təminatı üzrə əməli tədbirlər həyata keçirilmiş, hərbi hissələrdə genişmiqyaslı tikinti və abadlaşdırma işləri davam etdirilmişdir.**

Hərbi qulluqçuların sosial müdafiəsinin yaxşılaşdırılması məqsədi ilə yeni, müasir tipli, hərtərəfli şəraitə malik xidməti mənzillər inşa edilib istifadəyə verilmiş (Binəqədi və Nərimanov rayonları ərazisində), məişət obyektləri tikilmiş, bir sıra obyektlərdə əsaslı təmir və yenidənqurma işləri aparılmışdır.

Qəbələ rayonunda və Şirvan şəhərində yeni hərbi şəhərciklərin, Naxçıvan şəhərində yerləşən "N" saylı hərbi hissədə gizir və müddətdən artıq xidmət edən həqiqi hərbi xidmət hərbi qulluqçular üçün 5 mərtəbəli yataqxananın, Ali Hərbi Məktəbdə isə kursant yataqxanasının tikintisi üzrə işlər davam etdirilmişdir.

Gənc əsgərlərin qəbulu ilə əlaqədar hazırlıq işləri görülmüş, onların yerləşdirilməsinə, lazımi maddi vəsaitlərlə təminatına, qidalanmasına və hamam-camaşırxana xidmətinə nəzarət olunmuşdur.

Nəqliyyat vasitələrinin texniki vəziyyətini yaxşılaşdırmaq məqsədilə hərbi hissələrdə texnikanın vəziyyəti daim nəzarətdə saxlanılmış, ehtiyat hissələri və qaraj avadanlıqları tədarük olunmuş, nəqliyyat vasitələrinin yay istismar dövrünə hazırlığı məqsədi ilə avtomobillərə mövsümü texniki qulluq göstərilmişdir.

Həmçinin yol-nəqliyyat hadisələrinin qarşısının alınması üzrə tədbirlər planı hazırlanmış və icrası barədə yerli Dövlət Yol Polisinin vəzifəli şəxslərini dəvət etməklə sürücü heyəti və fərdi nəqliyyat vasitələrinin sahibləri ilə yol-hərəkəti təhlükəsizliyi mövzularında məşğələlər keçirilmişdir.

Hərbi qospitalda müasir tələblərə cavab verən rentgen otağı istifadəyə verilmiş, Ali Hərbi Məktəbdə isə gimnastika şəhərciyi və futbol meydançası yaradılmışdır.

Hərbi hissələrdə istilik sistemlərinin işi, generatorların saz vəziyyətdə saxlanılması, avadanlıqlara texniki qulluğun göstərilməsi, təhlükəsizlik və yanğından mühafizə tədbirləri də nəzarətdə saxlanılmışdır.

Bir sözlə, hesabat dövründə həyata keçirilən tədbirlər bir daha onu göstərir ki, Daxili Qoşunlarda abadlıq-quruculuq işləri müntəzəm olaraq davam etdirilməkdədir.

**Mətbuat Xidməti**

# MƏQSƏDİMİZ SAĞLAM GƏNCLİK YETİŞDİRMƏKDİR

**Daxili Qoşunların sıralarında nizam-intizamı, yüksək döyüş hazırlığı və nümunəvi xidməti ilə fərqlənən hərbi qulluqçulardan biri də 67987 saylı hərbi hissədə fiziki hazırlıq və idman rəisi mayor Ramin Əliyevdir.**



**Mayor Ramin Rəsul oğlu Əliyev** 1979-cu il yanvarın 1-də Bakı şəhərində anadan olub. 1996-2000-ci illərdə Azərbaycan Dövlət Texniki Universitetini bitirib. 2000-2003-cü illərdə Müdafiə Nazirliyinin Füzuli rayonu ərazisində yerləşən "N" saylı hərbi hissəsində zabit kimi hərbi xidmət keçib. 2003-cü ildən Daxili Qoşunların 25031 saylı hərbi hissəsində (keçmiş 12318 saylı hərbi hissə - A.Ə.) taqım komandiri kimi xidmətini davam etdirib. 2012-ci ildən isə 67987 saylı hərbi hissədə fiziki hazırlıq və idman rəisidir.

Mayor R.Əliyevin idmana marağı hələ uşaq yaşlarından formalaşmağa başlayıb. 15 yaşında isə artıq idmanın "cü-do" növü üzrə yeniyetmələr arasında keçirilən müxtəlif turnirlərdə fəal iştirak etməyə başlayıb. O, respublika çempionatlarında dəfələrlə rəqiblərini üstələyərək yarışların qalibi və mükafatçısı olub.

Nümunəvi xidmətilə seçilən mayor R.Əliyev hərbi hissədə nizam-intizamlı, bilik və bacarıqlı, ən əsası isə xidmətə məsuliyyətlə yanaşan zabit kimi tanınır. O, fiziki hazırlıq və idman rəisi kimi üzərinə düşən vəzifələri yüksək səviyyədə yerinə yetirir. Sadalanan bu müsbət keyfiyyətlərinə görə dəfələrlə Daxili İşlər Naziri, Daxili Qoşunların Komandanı, eləcə də hərbi hissənin komandanlığı tərəfindən müxtəlif mükafatlara layiq görülüb.

Mayor R.Əliyev bizimlə fikirlərini bölüşərkən qeyd etdi ki, başlıca məqsəd gələcəyimiz olan gənc və yeniyetmələrimizin sağlamlığını diqqətdə saxlamaq, onların fiziki hazırlığının yüksəltməkdir. Məhz ona görə də hərbi hissədə keçirilən kütləvi idman tədbirlərində və bölmələrin məşğələ cədvəlinə uyğun keçirilən fiziki hazırlıq məşğələlərində mütəmadi olaraq şəxsən iştirak edir. Eyni zamanda, normativlərin metodiki cəhətdən düzgün yerinə yetirilməsi məhz onun nəzarəti altında həyata keçirilir.

Mayor R.Əliyevə uzun ömür, can sağlığı və bundan sonrakı xidməti fəaliyyətində uğurlar arzulayırıq.

**"Əsgər"**

# HƏRBİ QULLUQÇULARIMIZ VƏTƏNƏ MEDALLA DÖNDÜ

***Daxili Qoşunların hərbi qulluqçularının beynəlxalq və yerli idman turnirlərindəki nailiyyəti davam etməkdədir. Daha bir uğur Rusiyanın Yekaterenburq şəhərindən gəldi. İyirmi beş ölkənin iştirak etdiyi beynəlxalq boks yarışında Daxili Qoşunların hərbi qulluqçuları da öz qüvvəsini sınamışdır.***



***52 kq. çəki dərəcəsində dörd rəqibini ram edən baş çavuş Cavid Həsənov (67987 saylı hərbi hissə) sonda rusiyalı idmançıya məğlub olaraq II yeri tutmuşdur.***

Digər təmsilçimiz - dəfələrlə beynəlxalq turnirlərin qalibi gizir Vüsal Gözəlov da komanda yoldaşının uğurunu təkrarlayıb. Ən ağır (120 kq.) çəkidə mübarizə aparan Vüsal ilk



olaraq özbək idmançını geridə qoyub. Ardınca yerli nümayəndəni "başı aşağı" yola salan cəngavərimiz finalda xal hesabında geri düşüb. Final görüşündə yalnız tacik idmançıya məğlub olan gizir V.Gözəlov II yerlə kifayətlənib.

Pəhləvanlarımız münsiflər tərəfindən kubok, medal və diploma mükafatlandırılmışlar.

## DAXİLİ QOŞUNLAR YENƏ DƏ BİRİNCİ OLDU

İyun ayının 27-dən 29-dək daxili işlər orqan və hissələri arasında «Polis günü»nə həsr olunmuş idmanın sərbəst güləş növü üzrə şəxsi və



komanda birinciliyi keçirilmişdir. Turnirdə Daxili Qoşunlar 9 idmançı və 1 nümayəndə ilə təmsil olunmuşdur.

Yarışda 61 kq. çəki dərəcəsində əsgər Elvin Qasımov (17072 saylı hərbi hissə), 70 kq. çəki dərəcəsində leytenant Şahin Göyüşov (99713 saylı hərbi hissə), 74 kq. çəki dərəcəsində çavuş Məhəmməd Ağalarov (99713 saylı hərbi hissə) 1-ci yeri, 61 kq. çəki dərəcəsində əsgər Kazım Cumalıyev (25032 saylı hərbi hissə), 65 kq. çəki dərəcəsində kursant Nadir Şərifov (AHM), 70 kq. çəki dərəcəsində baş çavuş Eldar Məmmədov (99713 saylı hərbi hissə) 2-ci yeri və 84 kq. çəki dərəcəsində əsgər Süleyman Mehdiyev (16075 saylı hərbi hissə) 3-cü yeri tutmuşlar. Ümumilikdə, Daxili Qoşunların yeddi təmsilçisi medala layiq görülmüşdür.

Şəxsi birincilikdə əldə olunan nailiyyətlərə görə Daxili Qoşunların yığma komandası I yeri tutmuşdur.

**baş leytenant T.Əlizadə**

# KURS BİRİNCİSİ OLDU

***Daxili Qoşunların sıralarında nizam-intizamı, yüksək döyüş hazırlığı və nümunəvi xidməti ilə fərqlənən hərbi qulluqçulardan biri də gizir Tural Hüseynovdur. O, iyun ayının 6-da Daxili Qoşunların Ali Hərbi Məktəbinin gizir hazırlayan kursun 11-ci dönəmini müvəffəqiyyətlə bitirərək məzunlar arasında birinci yerə layiq görülmüşdür. Məlumat üçün qeyd edim ki, gizir T.Hüseynov 67987 saylı hərbi hissədə xidmət edir.***

Gizir Tural Miqadil oğlu Hüseynov 1990-cı il yanvarın 8-də Salyan rayonunun Qarabağlar kəndində anadan olub. 2008-2009-cu illərdə Daxili Qoşunlarda müddətli həqiqi hərbi xidmət keçib. Xidməti dövründə Hacıqabulda yerləşən "N" saylı hərbi hissədə kiçik komandir hazırlayan kursu bitirərək, "çavuş" hərbi rütbəsinə layiq görülüb. 2012-ci ilin sentyabr ayından hərbi hissədə müddətdən artıq xidmət edən həqiqi hərbi xidmət hərbi qulluqçu kimi xidmətini davam etdirməyə başlayıb.

Gizir T.Hüseynov hazırda dəstədə bilik və bacarığı ilə sayılıb-seçilən qrup komandirlərindən biri kimi üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir. Yüksək nizam-intizamına və nümunəvi xidmətinə görə o, Daxili Qoşunların Komandanı, həmçinin hərbi hissənin



komandanlıq tərəfindən dəfələrlə mükafatlandırılıb.

Daxili Qoşunların hərbi qulluqçusu kimi həmişə bilik və bacarığı, müsbət keyfiyyətləri ilə həmkarlarından fərqlənən və daim öndə olmağa çalışan Tural, bu dəfə də "ənənəsinə" sadiq qalaraq, Daxili Qoşunların Ali Hərbi Məktəbinin gizir hazırlayan kursun 11-ci dönəmini müvəffəqiyyətlə bitirib. Qoşunların müxtəlif hərbi hissələrini təmsil edən məzunlar arasında birinci yerə layiq görülüb.

Gizir T.Hüseynovun arzusu isə gələcəkdə zabit kimi qoşunların sıralarında xidmətini davam etdirməkdir. Ona görə də daim öz üzərində çalışır, bilik və bacarığını artırmağa səy göstərir.

Döyüş ənənələri olan hərbi hissəmizi kurs müddətində layiqincə təmsil edərək birincilik əldə etmiş gizir T.Hüseynovu təbrik edir, xidməti fəaliyyətində uğurlar arzulayırıq. Belə hərbi qulluqçularımızla qürur duyuruq.

**baş leytenant A.Əhmədov**
**67987 saylı hərbi hissənin zabiti**

# ŞAHMAT ÜZRƏ TURNİRİN QALİBİ



**Daxili Qoşunların hissə və bölmələrində şəxsi heyətin mənəvi-psixoloji durumunun yüksəldilməsi, həmçinin asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə şənbə, bazar və bayram günləri müxtəlif tədbirlər planlaşdırılıb həyata keçirilir. Belə tədbirlərdən biri də stolüstü oyunların, o cümlədən şahmat üzrə yarışın keçirilməsidir.**

**67987 saylı hərbi hissənin bölmələrində bu cür yarışların keçirilməsi demək olar ki, ənənə halını alıb. Bu baxımdan polkovnik-leytenant Zəka Əhmədovun komandiri olduğu dəstənin adını xüsusi olaraq qeyd etmək olar.**

İyunun 26-da Silahlı Qüvvələrin yaranmasının 96-cı ildönümü münasibəti ilə dəstə və bölmələrdə tərtib olunmuş bayram gününün tədbirlər planlarında məhz şahmat üzrə birincilik yarışın keçirilməsi öz əksini tapmışdır. Keçirilən belə yarışlarda həftəlik olaraq yarımqrup, qrup və bölmələr arasından qaliblər müəyyənləşdirilir. Bölmələr üzrə qalib gəlmiş hərbi qulluqçular isə təbii ki, dəstə birincisi uğrunda keçiriləcək yarışda iştirak etmək hüququ qazanırlar.

Silahlı Qüvvələr gününə həsr olunmuş şahmat üzrə keçirilən dəstə birinciliyinin bu dəfəki qalibi isə müddətdən artıq xidmət edən həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Maqsud Talıbxanlı oldu. Qazandığı nailiyyətə görə o, dəstə komandiri tərəfindən "qiymətli hədiyyə" ilə mükafatlandırılmışdır.

Çavuş M.Talıbxanlının ən böyük arzusu isə respublikamızda, o cümlədən xarici ölkələrdə şahmat üzrə keçirilən beynəlxalq turnirlərdə qatılmaq və Daxili Qoşunları layiqincə təmsil etməkdir.

Silahdaşımızı təbrik edir və ona xidməti fəaliyyətində uğurlar arzulayırıq.

**baş leytenant A.Əhmədov**

# ADINA LAYİQ HƏRBİ QULLUQÇU




**Əsgər Qorxmaz Teymurlu** 1995-ci il aprelin 4-də Beyləqan rayonu II Şahsevən kəndində anadan olub. Orta təhsillidir. 2013-cü ilin oktyabr ayından Daxili Qoşunların 16075 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçməkdədir. Xidməti müddətində hərbi hissə rəhbərliyi tərəfindən dəfələrlə mükafatlandırılıb.

Komendant taqımının əsgəri olan Qorxmaz elə adına layiq hərbi qulluqçudur. Qarovul rəisinin köməkçisi kimi üzərinə düşən hər bir tapşırığın öhdəsindən layiqincə gəlir. Postların vaxtlıvaxtında dəyişdirilməsinə, şəxsi heyətin qidalanmasına ciddi nəzarət edən əsgər Q.Teymurlu şəxsi heyətin asudə vaxtının səmərəli təşkilini də diqqətdə saxlayır. Onun sözlərinə görə, hələ ilk hərbi biliklərə Cəmşid Naxçıvanski adına hərbi litseydə təhsil alarkən yiyələnib.

O, öyrəndiyi hərbi bilikləri tabeçiliyində olan şəxsi heyətə aşılamaqla yanaşı, öz üzərində də daima çalışaraq bilik və bacarığını artırır. Əsgər Q.Teymurlu bundan sonra da ona verilən tapşırıqlara məsuliyyətlə yanaşacağını və göstərilən etimadı doğruldacağına söz verdi.

**baş leytenant T.Əlizadə**

3_Layout 1 14.07.2014 9:19 Page 1



*Şəhidlərimiz*

# “EVƏ QƏLƏBƏ SEVİNCİ İLƏ QAYIDACAM...”

**Qarabağ uğrunda qəhrəmancasına şəhid olmuş igid oğullarımız haqqında danışmaq nə qədər çətindirsə, bir o qədər də şərəflidir. İndi haqqında söz açacağım qəhrəman əsgər yoldaşım olmuş və Ağdam rayonunun ərazisində yerləşən Fərrux dağı uğrunda şəhid olmuş Muradxanov Rövşən Muradxan oğludur.**

O, 1992-ci ilin may ayında Xaçmaz rayonunun hərbi komissarlığı tərəfindən hərbi xidmətə çağırılmışdır.



Muradxanov Rövşən Muradxan oğlu

**Hazırda 67987 saylı hərbi hissədə xidmət edən baş leytenant Bəxtiyar Əliyev Rövşənlə bağlı döyüş xatirələrini bölüşdü:**

“Rövşən xidmətə məndən bir neçə həftə gec gəlməsinə baxmayaraq, tez bir zamanda hərbi xidmətin qanunauyğunluqlarına yiyələnmək üçün səylə çalışırdı. Çünki bilirdi ki, gec-tez torpaqlarımızın erməni qəsbkarlarından təmizlənməsi üçün bizə də növbə çatacaq.

Xidmətə gəlməmişdən əvvəl texnikaya həvəsi olduğundan sürücülük məktəbini bitirmişdir. O, komandirləri tərəfindən verilmiş hər bir tapşırığın öhdəsindən layiqincə gəlir və verilən tapşırıqların yerinə yetirilməsinə həvəslə yanaşırdı. Beləcə, 12 iyun 1992-ci ildə Montində yerləşən alayımız Ağdam istiqamətində gedən döyüşlərə cəlb olundu. Rövşən də bizimlə bərabər Naxçıvanik, Aranzəmin, Pircamal uğrunda gedən döyüşlərdə şücaətlə iştirak edirdi. Müəyyən bir vaxtdan sonra biz onunla fərqli mövqelərə yollandıq. Hər hansı bir döyüş tapşırığının alınması zamanı Cinli adlanan kənddə toplaşırdıq və onunla yalnız həmin kənddə görüşürdük.

Evə məktub yazarkən burada hər şeyin yaxşı olduğunu, ondan ötrü narahat olmamalarını və tez bir zamanda erməni quldurlarını torpaqlarımızdan qovub çıxaracağımızı qeyd edirdi. İstəmirdi ki, onun yanına ailə üzvlərindən gələn olsun. Deyirdi ki, tezliklə qələbə sevinci ilə evə qayıdacaq. O buna hədsiz dərəcədə inanırdı...

...Artıq biz onunla tez-tez görüşürdük. Çünki hər gün Fərrux dağı uğrunda gedən döyüşlərdə qarşılaşırdıq. Sentyabr ayının 22-dən etibarən döyüşlər daha da şiddətlənməyə başlamışdı. Döyüşlər zamanı şəhid olmuş və yaralanmış əsgər yoldaşlarımızı gördükcə Rövşənin erməni cəlladlarına qarşı nifrəti birə-beş artırdı. Şəhidlərimizin qanının yerdə qalmayacağını böyük inamla qeyd edirdi.

Sentyabrın 25-də gecəyarı şəxsi heyət təyin olunmuş yerə getmək üçün yola düşdü.

**26 sentyabr 1992-ci il.** Tabor komandirimiz mayor Məhəmməd Hacıyev tərəfindən yerləşdiyimiz mövqe üzrə döyüş əmri verildi. Sübh tezdən ermənilərin yerləşdiyi mövqelərə hücum başlandı. Hücum zamanı bir neçə erməni qulduru məhv edildi. Bu zaman Rövşən də bizim sıralarımızda idi. O, yaralı erməni əsgərinə nifrət hissilə “sizin ayağınız bir də bu torpağa dəyməyəcək!”, deyərək onu məhv etdi. Biz bir neçə saat postlarda mövqe tutduqdan sonra düşmən qüvvələri böyük sayda şəxsi heyət və texnika ilə hücuma keçdilər. İki saat çəkən qızğın döyüşdən sonra mövqelərimizi dəyişməyə məcbur olduq. Fərrux dağının tam mərkəzində tabor yenidən toparlandı. Bu zaman iki əsgərimizin yaralı vəziyyətdə yuxarı mövqedə qaldıqlarını söylədilər. Onlardan biri də Rövşən idi. Tabor komandiri mayor Məhəmməd Hacıyev yaralılarımızın düşmən əlinə keçməməsi üçün onların gətirilməsini əmr etdi. Daşnakların gözləmədiyi anda onların üzərinə hücuma keçdik. Hücum zamanı istədiyimizə nail olsaq da, onları sağ görə bilmədik. Şərəfsiz erməni cəlladları Rövşəni amansızcasına və faciəvi şəkildə qətlə yetirmişdilər. İnsan qanına susamış qəsbkarlar Rövşəni yaralı şəkildə ağaca bağlayaraq ağır işgəncələr verərək qətlə yetirmişlər. Bu vəhşiliyi görən əsgər yoldaşlarımız çox kədərli bir an yaşadılar. Beləliklə, əsgər yoldaşlarımız tərəfindən hər iki şəhidimizin cəsədi dağdan aşağı endirildi.

Həmin günün axşamı mən özüm də yaralandığım üçün aşağıda yerləşən mövqeyə gətirildim. Burada heç zaman yaddaşımdan çıxmayan bir hadisənin şahidi oldum. Rövşənin atası Muradxan kişi oğlu ilə görüşmək üçün ön xəttə gəlmişdi. Təəssüf ki, görüşünə gəldiyi oğlunun tabutunu aparmalı oldu. Doğrudan da çox sarsıdıcı bir mənzərə idi. İnanıram ki, Rövşənlə bərabər bütün şəhidlərimizin qanları yerdə qalmayacaq!”.

**Allah rəhmət eləsin!**

**P.S.** Xaçmaz rayon Ləcət kənd orta məktəbi şəhid Rövşən Muradxanovun adını daşıyır.

**baş leytenant A.Əhmədov**

## 22 İYUL – MİLLİ MƏTBUAT GÜNÜ

# “ƏKİNÇİ”DƏN BAŞLANAN YOL

**Hər bir xalqın tarixində doğma ana dilində qəzet dərc olunması əlamətdar hadisədir. Milli mətbuatın əsası Avropada 16-cı, Rusiyada 18-ci əsrdə qoyulmuşdur. Azərbaycan isə bu şərəfli günü 1875-ci il iyul ayının 22-də yaşamışdır. Ölkəmizdə ən mühüm ilklərə imza atan Həsən bəy Zərdabi uzun sürən "gəl-get"lərdən sonra nəhayət ki, qəzet çap etmək üçün icazə ala bilmiş və “Əkinçi” qəzetinin ilk sayı işıq üzü görmüşdür.**



Məlumdur ki, o dövrdəki ab-havada doğma dildə qəzet çıxarmaq heç də asan məsələ deyildi. Bütün bu əziyyətlər barədə H.Zərdabi məqalələrindən birində yazırdı: “Bəs qəzeti necə çıxardım? Pul yox, yazıçı yoldaş yox, çapxana yox, hürufat yox, əmələ yox... Dövlət tərəfindən izn almaq da ki, bir böyük bəladır”

**Amma o, həmin “bəlaları” dəf etməyi bacardı. Çünki xalqını çox sevirdi və həyatını bütünlüklə onun maariflənməsinə həsr etmək istəyirdi. Xalqının başına gələn bir çox bədbəxtliklərin əsas səbəbini məhz elmin, maarifin, təhsilin yoxluğunda görən Zərdabi qəzetdə dərc olunmuş məqalələrindən birində bildirmişdir ki, çətinliklərimizdən danışarkən ümumi savadsızlığın adını çəkmirik, halbuki bu, başlıca səbəbdir.**

Böyük maddi və mənəvi çətinliklər hesabına nəşr olunan “Əkinçi” dövrünün bütün sahələri haqqında yazılar dərc edən ən mühüm mənbədir. Əhalisinin əksəriyyətinin savadsız olduğu bir ölkədə “xalqın qəzet oxumağa adət etməsi”nə nail olmaq, jurnalistika vərdişlərinə yiyələnən yazarlar yetişdirmək qəzetin əsas qayğılarından biri idi. Bu məqsədlə Həsən bəy qəzetin tirajının bir hissəsini Bakının küçə və bazarlarında paylatmaqdan əlavə, onları pulsuz başqa şəhərlərə də göndərirdi. Oxucuları mütaliəyə həvəsləndirmək üçün qəzetin səhifələrində tez-tez dünyanın məşhur kitabxanaları barədə yazılar dərc olunurdu. Lakin qəzet bunlarla da kifayətlənməyib, xalqın mədəni səviyyəsini yüksəltmək üçün konkret tövsiyələr də verirdi. Məsələn, Bakıda klub açıb qiraət üçün kitab və qəzetlər gətirtmək, onları xalqa “müftə, ya da az qiymətə” paylamaq olar. Ümumiyyətlə, H.Zərdabini xalqının maariflənməsi yolunda çəkdiyi əziyyətin sayı-hesabı yoxdur. İlk kitabxananın, xeyriyyə cəmiyyətinin, yeni tipli məktəblərin açılmasının təşkilatçısı olan Zərdabi bəy ailəsində böyüməsinə baxmayaraq, Azərbaycan kəndlisinin savadını artırmaq üçün müəllim işləməkdən də boyun qaçırmamışdı.

“Əkinçi”nin ən mühüm vəzifələrindən digəri isə xalqın oğul və qızlarını Vətəni sədaqətlə sevən alovlu bir vətənpərvər kimi yetişdirmək idi. Qəzet dəfələrlə gənc oxucularına xatırladırdı ki, əcdadlarımız bizə gözəl, zəngin, bərəkətli bir dövlət - Vətən torpağı qoyub getmişlər, onu qoruyub saxlamaq isə bizim əsas borcumuzdur. Bu müqəddəs amalı həyata keçirərkən H.Zərdabiyə dövrünün görkəmli ziyalıları- M.F.Axundzadə, S.Ə.Şirvani, N.Vəzirov, Ə.Gorani və başqaları kömək etmişlər. Yalnız belə tərəqqipərvər heyətin sayəsində “Əkinçi” qəzeti 19-cu əsr Azərbaycan ictimai fikrini, tarixini, mətbuatını öyrənmək üçün ən dəyərli xəzinəyə çevrilmişdir.

O, eyni zamanda demokratik oxucunu siyasi cəhətdən də maarifləndirir, qonşu dövlətlərdə baş verən hadisələri təhlil etməklə, əslində, milli ideyaları yaymağa çalışır və xalqını hər zaman tərəqqiyə, inkişafa səsləyirdi. Bundan əlavə, qəzetdə milli adət-ənənələr, nikah, ailə, mərasimlər, ayinlər və digər mövzularda dərc edilmiş yazılar da ciddi maarifləndirici əhəmiyyətə malik idi.

Cəmi 2 il çap olunmasına baxmayaraq, “Əkinçi” qəzeti sözün əsl mənasında mədəniyyət salnaməmizdə böyük ad qoydu. Onun milli mətbuat tarixində açdığı yol, əsasını qoyduğu ənənələr uzunömürlü oldu. Qəzet özündən sonra gələn bütün mətbu orqanlar üçün məktəb rolunu oynadı, xalqa sədaqətin, milli zülmə qarşı mübarizənin, mədəniyyətin, ana dilinin saflığının qorunması yolunda çalışmağın, ən əsası isə demokratik mətbuatın simvoluna çevrildi. Sonrakı illərdə çap olunan bütün mətbu orqanlar da onun qoyduğu ideyaları, mütərəqqi ənənələri, tutduğu yolu davam etdirdilər.

Bu gün də ölkəmizdə nəşr olunan qəzet və jurnallar, ümumilikdə, Azərbaycan jurnalistikasının yaranması və formalaşması məhz “Əkinçi”nin xidmətləridir. Onun əsasını qoyduğu məktəb, millətin, ölkənin dərdinə şəriklik, həmrəylik heç vaxt öz dəyərini itirmir. Demokratik mətbuatın əsl nümunəsi kimi “Əkinçi” hələ uzun müddət bilik və təcrübə mənbəyi olaraq qalacaqdır. Həmin məktəbdən bəhrələnmək, onun yaratdığı ənənələri mənimsəmək isə zənnimcə yalnız “qələm sahiblərinin” deyil, Vətənini ürəkdən sevən hər bir vətəndaşın borcudur.

Bu bir həqiqətdir ki, müasir dövrdə Azərbaycan mətbuatı, bütövlükdə Azərbaycan jurnalistikası yeni inkişaf mərhələsinə qədəm qoyur. Bu gün kütləvi informasiya vasitələri dövlət tərəfindən ən yüksək səviyyəli diqqət və qayğı ilə əhatə olunur. Ölkəmizdə milli mətbuatımızla bağlı yubileylərin geniş şəkildə qeyd edilməsi, KİV-ə birdəfəlik yardımların göstərilməsi, jurnalistlərin sosial-məişət şəraitinin yaxşılaşdırılması, onların fəxri adlar və digər mükafatlarla təltif edilməsi, yeni-yeni mətbuat orqanlarının nəşr edilməsinə yaranmış şərait göstərilən diqqət və qayğının mühüm tərkib hissəsidir.

Ölkəmizdə hərbi jurnalistikanın inkişafında danılmaz xidmətləri olan “Əsgər” qəzetinin də əsas qayəsi oxucusunu vətənpərvər ruhda yetişdirməkdir. Müharibənin ağrı-acısı, əzabı ilə birgə addımlamış, sərt sınaqlarla üzləşən “Əsgər” artıq 22 ildir ki, nəşr olunur. Bu illər ərzində qəzet Daxili Qoşunların dünənini unutmamış, onun yaranması, formalaşması, torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə cəsarətli hərbi qulluqçuların göstərdiyi şücaəti, fədakar xidmətlərini, öz səhifələrində əks etdirmişdir. Qəzet bu gün də Daxili Qoşunlardakı sürətli inkişafı, həyata keçirilən davamlı quruculuq işlərini, nümunəvi xidməti ilə seçilən əsgər və zabitlərin fəaliyyətini fəxrlə işıqlandırır.

**“Əsgər” bundan sonra da üzərinə düşən missiyaları şərəflə, imzasına hörmət edərək yerinə yetirəcək və öz səhifələrində Daxili Qoşunların həyatı ilə bağlı ən xoş hadisələri əks etdirəcəkdir.**

**gizir X.Tağıyeva**

# HƏRBİ HİSSƏDƏ “ADINA YARAŞAN OĞUL” SƏNƏDLİ FİLMİNİN TƏQDİMAT MƏRASİMİ KEÇİRİLMİŞDİR

**Azərbaycan Silahlı Qüvvələri Günü münasibətilə Mədəniyyət və Turizm Nazirliyinin və Bakı Şəhər İcra Hakimiyyəti Aparatının Kino Xidməti İdarəsinin təşkilati dəstəyi ilə “Milli Qəhrəmanlar” sənədli filmlər həftəsi çərçivəsində növbəti - sonuncu tədbir iyunun 27-də Daxili Qoşunların 25031 saylı hərbi hissəsində keçirilmişdir.**

Milli Qəhrəman Qorxmaz Eyvazova həsr edilmiş tədbirdə rejissor Yalçın Verdiyev tərəfindən lentə alınmış “Adına yaraşan oğul” sənədli filminin təqdimatı olmuşdur.

Tədbirdə Milli Məclisin deputatları Asim Mollazadə, Qənirə Paşayeva, Aydın Mirzəzadə, Milli qəhrəmanlar - Qorxmaz Eyvazovun, Gültəkin Əsgərovanın, Rasim İbrahimovun və Məzahir Rüstəmovun ailə üzvləri, dostları və KİV nümayəndələri iştirak etmişlər.

Kino Xidməti İdarəsinin rəis müavini Cəmil Xəlilov tədbiri açaraq Milli Qəhrəmanın həyatından və keçdiyi döyüş yolundan danışmışdır. Bildirilmişdir ki, 1967-ci ildə Laçın rayonunda dünyaya göz açan Qorxmaz Eyvazov 1984-cü ildə onuncu sinfi bitirərək Laçın rayonundakı 127 nömrəli texniki-peşə məktəbinə daxil olmuşdur.

O, 1985-ci ildə ordu sıralarına çağırılmış, xidmət etdiyi müddətdə dəfələrlə komandanlığın fəxri fərmanları ilə təltif olunmuşdur. Q.Eyvazov 1987-ci ildə əsgəri xidmətini başa vurmuşdur.







1988-ci ildə Laçında yaradılan partizan dəstəsinə qoşulan Qorxmaz 1992-ci ilin martında Laçın Rayon Polis İdarəsinə işə qəbul edilmişdir. Qorxmazın döyüş yolu doğma yurdundan - Qazdərəsi, Suarası və Mazutlu kəndlərindən başlamışdı. Qızartı dağı uğrunda gedən döyüşlərdə onun xüsusi fəallığı nəticəsində düşmənin bir tankı ələ keçirilmişdi. 1992-ci il avqustun 4-də erməni quldurları Qızartı dağını ələ keçirmək üçün qəfil hücuma keçirlər. Cəsur döyüşçü bu döyüşdə qolundan güllə yarası alır. Sağalan kimi, qısa müddətdən sonra yenidən döyüşə atılan Qorxmaz Eyvazov Horadiz əməliyyatı zamanı göstərdiyi igidliyə görə bölük komandiri təyin edilir. 1994-cü il fevralın 10-da Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi uğrunda gedən döyüşdə Qorxmaz Eyvazov düşmənin xeyli canlı qüvvəsini məhv edir. Lakin bu döyüşdə özü də həlak olaraq şəhidlik zirvəsinə ucalır. Azərbaycan Respublikası Prezidentinin 1995-ci il 15 yanvar tarixli Fərmanı ilə Qorxmaz Abış oğlu Eyvazova ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir.

Sonra Milli Qəhrəmanın xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Milli Qəhrəmanın qardaşı oğlu İntiqam Eyvazov əmisinin xatirəsinə göstərilən yüksək ehtirama görə minnətdarlığını bildirmişdir.

Çıxış edən millət vəkilləri ölkəmizdə şəhid ailələrinə, veteranlara, əlillərə, o cümlədən Milli qəhrəmanlara, onların ailə üzvlərinə göstərilən dövlət qayğısından danışmışlar. Qeyd olunmuşdur ki, Ulu Öndər Heydər Əliyevin ideyalarını layiqincə yerinə yetirərək ordu quruculuğu sahəsində öz səylərini daha da artıran Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Azərbaycan Silahlı Qüvvələrinin müasir hərbi texnika ilə təmin edilməsinə, möhkəm nizam-intizam, yüksək döyüş ruhu ilə seçilən, düşmənə sarsıdıcı zərbə vurmağa qadir olan bir ordunun yaradılmasına nail olmuşdur. Natiqlər Azərbaycanın regionun lider dövlətinə çevrildiyini, bölgənin ən qüdrətli ordusu olan Silahlı Qüvvələrimizin Ali Baş Komandanın döyüş əmrinə hər an hazır olduğunu vurğulamışlar.

Digər çıxış edənlər də ordu quruculuğu sahəsində həyata keçirilən məqsədyönlü islahatlardan, ordu sıralarında xidmət edən Azərbaycan əsgərinin hazırlığından bəhs etmiş, Milli Qəhrəman Qorxmaz Eyvazovun keçdiyi həyat yolundan, Vətənin müdafiəsində göstərdiyi şücaətlərdən danışmışlar.

Tədbirdə respublikanın xalq artisti Flora Kərimova öz repertuarından hərbi vətənpərvərlik ruhu aşılayan mahnılar ifa etmişdir.

Sonda “Adına yaraşan oğul” sənədli filmi təqdim edilmişdir.

**“Əsgər”**

4_Layout 1 14.07.2014 9:20 Page 1



# BİZİM ŞÜAR:

## "MÖHKƏM HƏRBİ İNTİZAM, TƏLİMDƏ VƏ XİDMƏTDƏ YÜKSƏK NAİLİYYƏTLƏR UĞRUNDA!"

## UNUTMA!

**1813-1828-ci illərə** qədər Azərbaycanın ərazisi təxminən 410 min kv.km idi. İki dövlət arasında bağlanmış müqavilə əsasında bu ərazilərdən 280 min kv. km İranın, 130 min kv.km isə Rusiyanın əsarəti altına düşdü. **1918-ci ildə** Çar Rusiyası dağıldıqdan sonra Azərbaycan torpaqlarından 9 min kv.km-lik əraziyə malik İrəvan xanlığı Ermənistana, 7 min kv.km-lik ərazidə qərar tutan Dərbənd xanlığı isə bolşevik Rusiyasına verildi.

**1918-1920-ci illərdə** cəmi 23 ay yaşayan Azərbaycan Demokratik Respublikasının ərazisi 114 min kv.km olub.

Bolşevik Rusiyasının qoşunlarının **1920-ci ilin 28 aprelində** ADR-i işğal etməsindən sonra ərazilərimizin bölünməsi bu şəkildə davam etdirildi:

Zəngəzur, Dərələyaz və Dilcan (cəmi 10,9 min kv.km ərazi) Ermənistana, Borçalı mahalı (cəmi 9,5 min kv.km ərazi) Gürcüstana verildi.

Azərbaycan torpaqlarının qonşularımıza bağışlanması SSRİ dövründə də Moskvanın diqtəsi ilə davam etmişdi. Bu illərdə Göyçə mahalı və Naxçıvandan 9 yaşayış məntəqəsi, Qazaxdan 50 kv.km-lik ərazi, Cəbrayıl qəzasından Nüvədi, Ernəzir və Tuğud kəndləri, 40 kv.km-lik meşə sahəsi, Tovuz rayonunun 7,6 kv.km-lik ərazisi ermənilərə verilmişdir.

**1988-1993-cü illərdə** ərazisi 86,6 min kv.km olan Azərbaycanın aşağıdakı əraziləri işğal altına düşmüşdür: Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut) cəmi 4400 kv.km idi.

| | | |
|---|---|---|
| **Şuşa şəhəri** | - (289 kv.km) | - 8.05.1992 |
| **Laçın rayonu** | - (1835 kv.km) | - 17.05.1992 |
| **Kəlbəcər rayonu** | - (1936 kv.km) | - 2.04.1993 |
| **Ağdam rayonu** | - (1094 kv.km) | - 23.07.1993 |
| **Cəbrayıl rayonu** | - (1050 kv.km) | - 18.08.1993 |
| **Füzuli rayonu** | - (1386 kv.km) | - 23.08.1993 |
| **Qubadlı rayonu** | - (802 kv.km) | - 31.08.1993 |
| **Zəngilan rayonu** | - (707 kv.km) | - 29.10.1993 |

## "HƏRBİ QULLUQÇULARIN STATUSU HAQQINDA" QANUNDA VƏ İNTİZAM NİZAMNAMƏSİNDƏ DƏYİŞİKLİK EDİLƏCƏK

***Bu barədə Müdafiə Nazirliyinin Hüquq İdarəsinin rəisi polkovnik Rauf Kişiyev bildirib.***




Onun sözlərinə görə, «Hərbi qulluqçuların statusu haqqında» qanunun yeni layihəsi hazırlanıb: «Həmin layihə Müdafiə Nazirliyinin hərbi kollegiyasının iclasında müzakirə edilib, verilmiş təkliflər nəzərə alınıb və layihə təkmilləşdirilərək son versiya şəklinə salınıb. Qanun layihəsinə hərbi qulluqçuların, onların ailə üzvlərinin, ehtiyata və istefaya buraxılmış şəxslərin sosial və hüquqi təminatının daha da yaxşılaşdırılması üçün bir sıra yeni müddəalar daxil edilib».

İdarə rəisinin sözlərinə görə, Silahlı Qüvvələrdə aparılan islahatlar çərçivəsində hərbi hissə komandirlərinin hərbi nizamnamələr və normativ hüquqi aktlarla müəyyən olunmuş hüquqlarının icrasına imkan verən, habelə hərbi geyim formalarının yenilənməsini, fərqləndirmə nişanlarının daşınması qaydalarının təkmilləşdirilməsini nəzərdə tutan sənədlərin layihələri hazırdır.

Polkovnik R.Kişiyev əlavə edib ki, İntizam Nizamnaməsinin yeni layihəsi üzərində işlər başa çatmaq üzrədir. Yeni layihədə intizam həbsinə dair müddəalar nəzərdə tutulub, onların effektiv icrası üçün mexanizmlər işlənib hazırlanıb.

# HƏRBİ İNTİZAM, HƏVƏSLƏNDİRMƏ VƏ İNTİZAM CƏZALARI

*(Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam Nizamnaməsindən çıxarış)*

***Möhkəm hərbi intizam döyüş hazırlığı zamanı qələbə deməkdir. Hərbi işdə intizamın rolu əvəzedilməzdir.***

***Silahlı Qüvvələrdəki hərbi intizam cəza və məcburiyyət prinsiplərinə deyil, hərbi qulluqçuların yüksək şüurluluğuna və vətənpərvərlik borclarını dərindən dərk etmələrinə, xalqımızın beynəlmiləlçilik prinsiplərinə sadiq olmalarına və Vətənə sonsuz məhəbbət bəsləmələrinə əsaslanır. Lakin bu şərtlər öz hərbi borclarına səhlənkar münasibət bəsləyən hərbi qulluqçulara qarşı intizam tədbirlərinin tətbiq edilməsini istisna etmir.***

***Bütün komandirlər (rəislər) Nizamnamənin tələblərini öz gündəlik işlərində rəhbər tutaraq hissə və bölmələrdə hərbi intizamın daim yüksək səviyyədə saxlanmasını təmin etməyə borcludurlar.***

### HƏRBİ QULLUQÇULAR TƏRƏFİNDƏN HƏRBİ İNTİZAM NİZAMNAMƏSİ TƏLƏBLƏRİNİN YERİNƏ YETİRİLMƏSİ VƏ VƏZİFƏLƏRİ:

Hərbi intizam bütün hərbi qulluqçuların Azərbaycan Respublikası tərəfindən qəbul edilən hərbi nizamnamələrdəki qaydalara ciddi riayət etməsi deməkdir.

Hərbi intizam hər bir hərbi qulluqçunun xidməti borcunu və öz vətəni - Azərbaycan Respublikasının müdafiəsi üçün şəxsi məsuliyyət daşımasını şüurlu surətdə dərk etməsinə əsaslanır.

**Hərbi İntizam Nizamnaməsində hər bir hərbi qulluqçunun aşağıdakı vəzifələri göstərilir:**

- Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına ciddi əməl etsin, hərbi andın, hərbi nizamnamələrin tələblərini, komandirlərin (rəislərin) əmr və sərəncamlarını dəqiq və vaxtında yerinə yetirsin;
- Hərbi xidmətin bütün çətinlik və məhrumiyyətlərinə mətinliklə tab gətirsin, borcunu yerinə yetirərkən öz canını və hətta həyatını belə əsirgəməsin;
- Hərbi və dövlət sirlərini möhkəm saxlasın;
- Namuslu və doğruçu olsun, hərbi işi vicdanla öyrənsin, ona tapşırılan silahı, döyüş texnikasını və digər texnikanı, hərbi və xalq əmlakını hər vasitə ilə qorusun;
- Komandirlərə (rəislərə) tabe olmaqla bərabər, intizam qaydalarına əməl etsin;
- Hərbi hissədən kənarda özünü ləyaqətli və namuslu aparsın, özü və başqaları tərəfindən ictimai asayiş qaydalarının pozulmasına yol verməsin, vətəndaşların şərəf və ləyaqətlərinin qorunmasına hərtərəfli səy göstərsin.

### YÜKSƏK HƏRBİ İNTİZAMA AŞAĞIDAKI QAYDALARA ƏMƏL ETMƏKLƏ NAİL OLMAQ MÜMKÜNDÜR:

- Hərbi qulluqçularda yüksək mənəvi və döyüş keyfiyyətləri və komandirlərə (rəislərə) şüurlu surətdə tabe olmaq;
- Hissələri tərbiyələndirməklə, hissədə (gəmidə, bölmədə) Nizamnamə qaydalarına riayət etməklə;
- Komandirlərin (rəislərin) öz tabeliyində olanlara gündəlik tələbkarlığı ilə onların şəxsi ləyaqətinə hörmət etməklə;
- Hərbi qulluqçulara daim qayğı göstərməklə;
- İnandırma və məcburiyyət tədbirlərini bacarıqla və düzgün əlaqələndirib tətbiq etməklə;

### ƏSGƏR VƏ MATROSLARIN HƏVƏSLƏNDİRİLMƏSİ:

Həvəsləndirmə hərbi qulluqçuların tərbiyə edilməsi və hərbi intizamın möhkəmləndirilməsi üçün mühüm vasitədir.

Hər bir komandir (rəis) nizamnamə ilə ona verilən hüquq çərçivəsində tabeliyində olan hərbi qulluqçuları onların ağlabatan təşəbbüslərinə və yaxşı xidmət göstəricilərinə görə rəğbətləndirməlidir.

Əgər komandir (rəis) hiss etsə ki, ona verilən hüquqlar tabeliyində olan hərbi qulluqçunu rəğbətləndirmək üçün kifayət deyil, onda o, özündən böyük rəisin hüququ ilə hərbi qulluqçunu rəğbətləndirmək üçün vəsatət qaldıra bilər.

Komandirlər (rəislər) öz tabeliyində olan hərbi qulluqçuları əsgəri borcunu yerinə yetirərkən göstərdikləri igidlik və rəşadətə, yeni mürəkkəb texnikanı əla mənimsədiklərinə, əla döyüş göstəricilərinə, qoşun hissələrinə nümunəvi rəhbərlik etdiklərinə və həmçinin Azərbaycan Respublikası Silahlı Qüvvələri qarşısındakı görkəmli xidmətlərinə görə Azərbaycan Respublikasının orden və medalları ilə təltif olunmağa təqdim etmək hüququna malikdirlər.

### ƏSGƏR, MATROS VƏ ÇAVUŞLAR ÜÇÜN AŞAĞIDAKI HƏVƏSLƏNDİRMƏLƏR TƏTBİQ EDİLİR:

- Təşəkkür elan etmək;
- Əvvəl verilmiş intizam cəzasını götürmək;
- Müddətli xidmət zamanı əsgər (matros) və çavuşlara hissə komandirlərinin müəyyən etdiyi gündə və saatda bir dəfə növbədənkənar hissənin yerləşdiyi yerdən, yaxud gəmidən sahilə buraxmaq;
- Fəxri fərman;
- Qiymətli hədiyyə, yaxud pulla mükafatlandırmaq;
- Hərbi qulluqçunu hissənin "Döyüş Bayrağı" yanında çəkilmiş fotoşəkli ilə mükafatlandırmaq;
- Hərbi qulluqçunun yaşadığı, yaxud işlədiyi yerə onun hərbi xidmət borcunu nümunəvi yerinə yetirməsi və aldığı mükafatlar haqqında məlumat vermək;
- Baş əsgər (baş matros) hərbi rütbəsi vermək;
- Müddətdən artıq xidmət edən çavuşlara ştat üzrə tutduqları vəzifə üçün müəyyən edilmiş rütbədən bir pillə yuxarı rütbə vermək;
- Əlaçı döş nişanı ilə mükafatlandırmaq;
- Əsgər (matros) və miçmanların adlarını hissənin (gəminin) fəxri kitabına yazmaq;
- Müddətli xidmət əsgər (matros) və çavuşlara (ali hərbi məktəblərin kursantlarından başqa) məzuniyyət yerinə gedib-qayıtma vaxtı nəzərə alınmadan 10 sutkayadək qısa müddətli məzuniyyət vermək.

### ƏSGƏR (MATROS) VƏ ÇAVUŞ VƏZİFƏLƏRİNDƏ OLAN HƏRBİ QULLUQÇU QADINLAR ÜÇÜN AŞAĞIDAKI HƏVƏSLƏNDİRMƏLƏR TƏTBİQ EDİLİR:

- Təşəkkür elan etmək;
- Əvvəllər verilmiş intizam cəzasını götürmək;
- Qiymətli hədiyyə, yaxud pulla mükafatlandırmaq;
- Hərbi qulluqçu qadını hissənin Döyüş Bayrağı yanında çəkilmiş fotoşəkili ilə mükafatlandırmaq;
- Hərbi qulluqçu qadının yaşadığı, yaxud əvvəl işlədiyi yerə onun hərbi xidmət borcunu nümunəvi yerinə yetirmək və aldığı mükafatlar haqqında məlumat vermək;
- Baş əsgər (baş matros) rütbəsi vermək;
- Əlaçı döş nişanı ilə mükafatlandırmaq;
- Hərbi qulluqçu qadınların adlarını hissənin (gəminin) fəxri kitabına yazmaq.

### ƏSGƏR (MATROS) VƏ ÇAVUŞLAR ÜÇÜN AŞAĞIDAKI İNTİZAM CƏZALARI MÜƏYYƏN EDİLİR:

- Məzəmmət;
- Töhmət;
- Şiddətli töhmət;
- Hissənin yerləşdiyi yerdən yaxud gəmidən sahilə növbəti buraxılmadan məhrum etmək;
- Növbədənkənar xidmət naryadına təyin etmək (qarovula və döyüş növbətçiliyinə göndərmək istisna edilməklə 5 xidmət naryadına qədər);
- Əsgəri dustaqxanada (təcridxanada) saxlanmaqla 10 sutkayadək həbs;
- Əlaçı döş nişanından məhrum etmək;
- Baş əsgər (baş matros) hərbi rütbəsindən məhrum etmək.

### MÜDDƏTLİ XİDMƏT ÇAVUŞLARINA AŞAĞIDAKI CƏZALAR VERİLƏ BİLƏR:

- Məzəmmət;
- Şiddətli töhmət;
- Hissənin yerləşdiyi yerdən, yaxud gəmidən sahilə növbəti buraxılmadan məhrum etmək;
- Əsgəri dustaqxanada saxlanmaqla 10 sutkayadək həbs;
- Əlaçı döş nişanından məhrum etmək;
- Aşağı vəzifəyə keçirmək;
- Hərbi rütbəni bir pillə aşağı salmaq;
- Hərbi rütbəni bir pillə aşağı salmaqla eyni zamanda aşağı vəzifəyə keçirmək;
- Çavuş hərbi rütbəsindən məhrum etmək;
- Çavuş hərbi rütbəsindən məhrum etməklə eyni zamanda aşağı vəzifəyə keçirmək.

### MÜDDƏTDƏN ARTIQ XİDMƏT EDƏN ÇAVUŞLARA AŞAĞIDAKI CƏZALAR VERİLƏ BİLƏR:

- Məzəmmət;
- Töhmət;
- Şiddətli töhmət;
- Əsgəri təcridxanada saxlamaqla 10 sutkayadək həbs;
- Əlaçı döş nişanından məhrum etmək;
- Öz vəzifəsinə tam uyğun olmaması barədə xəbərdarlıq etmək;
- Aşağı vəzifəyə keçirmək;
- Hərbi rütbəsini bir pillə aşağı salmaq;
- Hərbi rütbəsini bir pillə aşağı salmaqla eyni zamanda aşağı vəzifəyə keçirmək;
- Xidmət müddəti başa çatmamış ehtiyata buraxmaq;
- Sülh dövründə çavuş hərbi rütbəsindən məhrum etməklə ehtiyata buraxmaq.

### ƏSGƏR (MATROS) VƏ ÇAVUŞ VƏZİFƏLƏRİNDƏ XİDMƏT EDƏN HƏRBİ QULLUQÇU QADINLARA AŞAĞIDAKI CƏZALAR VERİLƏ BİLƏR:

- Məzəmmət;
- Töhmət;
- Şiddətli töhmət;
- Əlaçı döş nişanından məhrum etmək;
- Aşağı vəzifəyə keçirmək;
- Çavuşların hərbi rütbələrini bir pillə aşağı salmaq;
- Əsgər və matrosları isə baş əsgər (baş matros) rütbəsindən məhrum etmək;
- Çavuşların hərbi rütbələrini bir pillə aşağı salmaq, eyni zamanda aşağı vəzifəyə keçirmək;
- Çavuş rütbəsindən məhrum etmək;

İntizam cəzaları hərbi qulluqçulara qulluğundan, qulluq vaxtından, intizam nizamnaməsinin tələblərini nə dərəcədə bilməsindən, törədilən cinayət və cinayət məzmunlu işlərin dərəcəsindən asılı olaraq verilir.

Görülən cəza tədbirləri təqsirkarın təqsirlərinə uyğun olaraq verilməlidir. Verilən cəza tədbirləri təcili olaraq yerinə yetirilməlidir, xüsusi hallarda verilən bu cəza tədbirləri bir ay müddətində yerinə yetirilə bilər. Əsgərə bir ay müddətində verilən cəza yerinə yetirilməmişsə, onda o cəza təxirə salınır və ancaq hərbi qulluqçunun şəxsi işinə yazılır.

### AŞAĞIDAKI HALLARDA İNTİZAM CƏZASI ARTIRILA BİLƏR:

- Bir neçə dəfə qrup şəklində intizam nizamnaməsinin tələblərini pozduqda;
- Növbəti xidmət borcunu yerinə yetirərkən və növbə çəkərkən spirtli içkilər qəbul etdikdə.

***Rəğbətləndirmələri və intizam cəzalarını ancaq hərbi qulluqçuların birbaşa komandirləri (rəisləri), xüsusi hallarda isə qarnizon rəisləri, hərbi dəniz donanmasının yüksək rütbəli komandirləri (rəisləri) və qarnizon hərbi komendantı verə bilər.***

***Cəza tədbirləri bir ay müddətində yerinə yetirilə bilər. Əgər bir ay müddətində verilən cəza yerinə yetirilməmişsə, onda o cəza təxirə salınır və ancaq qulluqçunun şəxsi işinə yazılır.***

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN
Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Rəşad Sarıyev

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4,
Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63, 560-12-21

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000